Onun bir çox nəğmələrində payızın izini, nəfəsini hiss edə bilərsən. Xəzan yarpaqları uçuşur bu nəğmələrdə. Bakı küçələrini döyəcləyən yağış damcılarının səsi eşidilir. Bir axşam taksidən payıza düşmüş insanın dənizə baxan gözlərində nəhayətsizlik, nisgil, ümidlərin puçluğu duyulur. Düşünürsən, əsrarəngiz bir obraz, sadə melodiya, poetik mətnə xüsusi bir həssaslıq və nəhayət, nəğmələrin təravəti göz önündədir. "Uzaq yaşıl ada", "Çiçək yağışı", "Aman ayrılıq", "Düşürsən yadıma yağanda yağışlar" , "Bağışla", "Səni axtarıram səndən xəbərsiz"... kimi poetik misraların musiqi qiyafəsi necə də parlaq, rəvan və həzindir. Görkəmli Azərbaycan bəstəkarı Emin Sabitoğlu yaradıcılığının gücü də elə onun qeyri-adi gözəlliyi və səmimiliyi ilə seçilən melodiyalarındadır: sadə, təsirli və cazibədar!



# Məni axtarın... nəğmələrimdə

Elə özü də bu dünyaya bir payız günü gəlmişdi. Bir payız günü də "əlvida" deyib ayrıldı. 1937-ci ilin noyabrında doğuldu, 2000-ci ilin noyabrında dünyadan köçdü. 63 yaşında. Üstəlik, dünyaya gəldiyi 1937-ci ildə ölkədə Stalin repressiyasının payız küləkləri də əsirdi.

O, Bakı şəhərində yazıçı Sabit Rəhmanın və İsmət xanım İrəvanskinin ailəsində dünyaya göz açmışdı. Təbii ki, belə bir yaradıcı ailə mühiti onun gələcək taleyində özünü göstərməli idi. Bəli, Eminin istedadı özünü göstərdi, amma ədəbiyyatda deyil, musiqi sahəsində. Sovet dönəmində bir çox ailələrin övladları orta məktəbdə oxumaqla yanaşı, musiqi məktəbində də təhsil alırdılar. Bu, xüsusilə ziyalı ailələrində ənənəyə çevrilmişdi. Emin musiqi məktəbində oxuyan vaxt Səməd Vurğunun, Rəsul Rzanın, Məmməd Arifin, Cəfər Xəndanın və başqalarının övladları da orada təhsil alırdılar. Sonralar onların hər biri başqa yaradıcılıq sahələrində parladı. Çoxlarından fərqli olaraq, musiqi məktəbi yeniyetmə Emin Mahmudovun əsl istedadının üzə çıxdığı məkana çevrildi, gələcək həyat yolunu müəyyənləşdirdi. Məktəbi bitirəndən sonra 1954-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almağa başladı. Orada Qara Qarayevin sinfində oxudu. İki ildən sonra isə təhsilini P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında davam etdirdi. 1956-cı ildən Yuri Şaporinin bəstəkarlıq sinfində məşğul oldu.

1961-ci ildə vətənə qayıdan gənc bəstəkar "Azərbaycanfilm" kinostudiyasında musiqi redaktoru kimi çalışdı. Tanınan, sayılıb-seçilən yazıçı-dramaturqun övladı olsa da, öz yolunu böyük istedadı, yaradıcı zəhməti sayəsində açdı. Çalışdığı bütün təşkilatlarda ona yüksək etimad bəsləyirdilər. Sonrakı illərdə Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər kimi çalışanda da, konservatoriyada dərs deyəndə də bu xarakterini, işinə, peşəsinə münasibətini dəyişmədi.

## Onun hər mahnısı bir lövhə, bitkin tablo idi

E.Sabitoğlunun musiqidə sınadığı ilk istiqamət simfoniya və kamera əsərlərini əhatə edirdi. Ötən əsrin 60-cı illərində Qara Qarayevin sinfində assistent ikən yazdığı diplom işi - simfoniya yüksək peşəkarlıq nümunəsi kimi qiymətləndirilmişdi. O zaman skripka və fortepiano üçün poema da bəstələmişdi. Sonraki dövrlərdə Emin Sabitoğlu başqa janrlara da müraciət edir. Uvertüra, oda, romanslar silsiləsi bəstələyir. Xəyyam Mirzəzadə ilə birlikdə "Çiçəklən, Vətənim!" kantatasını ərsəyə gətirir. Bu mərhələni bəstəkarın yaradıcılığında axtarış dövrü də adlandırmaq olar. Çünki istedadını müxtəlif janrlarda sınaya-sınaya müəllif, nəhayət, öz janrını tapır. Bu, lirik mahnı janrı idi. Bütövlükdə götürəndə Emin Sabitoğlu bir simfoniya, üç simfonik poema, üç kantata, simli kvartet, skripka və fortepiano üçün poema kimi əsərlər yazıb. Amma onun yaradıcılığının əsasını, müəyyənedici hissəsini mahnılar təşkil edib.

Zaman göstərir ki, fitri istedadını mahnı yaradıcılığına yönəltməkdə səhvə yol verməmişdi. Çünki Emin Sabitoğlu mahnıları başqa bir aləmdir. Onları yaşından, peşəsindən asılı olmayaraq hamı sevir...

Belə bir "statistika"ya heyrətlənməmək mümkün deyil. Emin Sabitoğlu 600-dən çox mahnı bəstələyib, 9 musiqili komediyaya və 40-dan artıq filmə, çoxsaylı tamaşalara da musiqi yazıb. Bunlar hələ dəqiq hesablamalar deyil.

Hər bəstəkarın öz dəst-xətti, yaradıcılıq üslubu var. Bunlar müəllifin təkcə istedadından deyil, həm də musiqi biliyindən, savadından qaynaqlanır. Emin Sabitoğlu təhsil aldığı bütün yerlərdə, o cümlədən Moskva Dövlət Konservatoriyasında yüksək müvəffəqiyyət göstərmişdi. Daim öz üzərində çalışırdı. Mükəmməl musiqiləri dinləyirdi. Evində dahi Üzeyir bəyin əsərlərini dönə-dönə səsləndirir, onlara diqqətlə qulaq asırdı. Bütün bunların sayəsində Emin Sabitoğlu Səid Rüstəmov, Tofiq Quliyev, Cahangir Cahangirov, Rauf Hacıyev və digər görkəmli bəstəkarlar sırasında mahnı yaratmaq sahəsində öz dəst-xəttini göstərə bildi, sözünü deməyi bacardı. Dinləyici qarşısında orijinal bir lövhə, bənzərsiz tablo yaradan mahnılar bəstələdi.

Professor Rəhman Bədəlov Emin Sabitoğlu yaradıcılığının gizli fəlsəfəsini belə açır: "Zənnimcə, Eminin musiqisinə iki əsas cəhət xasdır. Birincisi bəstəkarın mahnılarının kədəridir. Lakin bu kədərdə bədbinlik yoxdur. O, adi şikayətdən, narazılıqdan da uzaqdır. Həmin kədər yalnız ondan doğur ki, həyatda çox şey istədiyi kimi alınmır. Ən yaxın adamlar belə bəzən səni başa düşmək iqtidarında olmur. Bəstəkarın mahnılarında vaxtın axınını duyursan və həmin axın qarşısında acizliyini dərk edib qüssələnirsən. İkincisi Emin musiqisinin sevincidir. Özü də sevincin müxtəlif çalarları nəzərə çarpır. Burada şuxluq, şıltaqlıq vardır. Bilmirsən Emin özünə gülür, yoxsa sənə".

## Yüksək poeziya duyumu vardı

Bəstəkarın çox yox, cəmi on mahnısını yada salaq: "Nə gözəldir Azərbaycan", "Bakı, sabahın xeyir", "Mavidir", "Sən olmuşam", "Belə ola həmişə", "Şükriyyə", "Payız gəldi", "Mən sizə gələcəm", "Ala gözlüm", "Əlvida"... Bu mahnıların heç biri digərinə bənzəmir. Əgər siyahını genişləndirsək, yenə bənzərsizlik haqqında eyni fikri söyləməli olacağıq. Emin Sabitoğlunun bütün mahnıları təkrarsızdır. Bəstəkarın qızı Ceyran xanım söyləyir ki, heç kimə bənzəməmək onun üçün prinsipal məsələ idi. Onun yüksək sənətkarlıq nümunələri insana saflaşdırıcı təsir bağışlayırdı.

Görkəmli bəstəkarın mahnılarını Azərbaycanın ən populyar müğənniləri ifa edib. Həm də bəstəkar sanki onları hərəsinin öz səsinə və ifa üslubuna uyğun yazıb. Bununla yanaşı, hər bir müğənniyə təqdim etdiyi mahnıların özündə də müxtəliflik nəzərə çarpır. Məsələn, Şövkət Ələkbərovanın repertuarındakı "Dərələr" mahnısı nə qədər həzindirsə, "Ağ çiçəyim" mahnısı bir o qədər ritmikdir. Yaxud Zeynəb Xanlarovanın ifasında bəstəkarın "Dağları duman alanda", "Əsir payız küləyi" kimi qəlbə sirayət edən, düşündürən lirik mahnıları ilə yanaşı bir sıra şən mahnılarını da dinləmişik. Təkrarsız Mirzə Babayev isə bir tərəfdən "Düşürsən yadıma yağanda yağışlar" mahnısı ilə dinləyicini kövrəldir, başqa tərəfdən "Kəpənək"lə eynini açır.

Bu gün də Emin Sabitoğlu mahnılarını müğənnilər böyük sevgi ilə oxuyurlar.

Hər bəstəkarın uğuru onun həm də poeziya duyumundan asılıdır. Yenə də bəstəkarın qızının xatirələrinə qayıdaq. Ceyran xanım deyir ki, onların evində babası Sabit Rəhmandan qalmış zəngin kitabxana var. Emin müəllimin ədəbiyyat sevgisi bu kitabxananı daha da böyütmüşdü. Şeiri sevməsi və mahnı üçün mətn duyumuna malik olması onun yaradıcılığına uğur gətirirdi. Bəstəkarın ayrı-ayrı şairlərlə yaradıcılıq tərəfdaşlığı onlarca gözəl mahnıya həyat vermişdi. E.Sabitoğlu poetik mətnə xüsusi həssaslıqla yanaşırdı. Çalışırdı ki, söz və musiqi arasında tam vəhdət olsun. Heç zaman sözü musiqinin xatirinə təhrif etmirdi, əksinə, şeirin gözəlliyini, məna incəliklərini önə çəkirdi. Elə intonasiyalar tapırdı ki, onlar sözlərlə bahəm yaddaşlara həkk olunurdu. Əhməd Cavadın, Rəsul Rzanın, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, İslam Səfərlinin, İbrahim Kəbirlinin, xüsusilə Vaqif Səmədoğlunun sözlərinə yazdığı xeyli sayda mahnıları var. O, hətta folklora müraciət edərək bayatılar əsasında da musiqilər yazırdı.

## Zamanı "dayandıran" nəğmələr

Emin Sabitoğlunun mahnılarından biri "Dayan, dayan, zaman, dayan" adlanır. Vaxtilə bu mahnının ilk ifaçısı "Sevil" vokal qrupu olmuşdu. İndi onu gənc ifaçılar da oxuyurlar. Əlbəttə, hər vaxtın öz hökmü var. Zamanı dayandırmaq mümkün deyil. Hər dövrün də öz nəğmələri olur. Lakin Emin Sabitoğlunun mahnıları zamanın sərhədlərini keçir. Getdikcə daha çox sevilir və dinlənilir, bir növ, klassik musiqiyə çevrilir. Bu da müəllifin daxili dünyasının zənginliyindən, musiqi istedadının böyüklüyündən irəli gəlir. Eləcə də insanların hiss və duyğularına yaxından bələd olduğunu göstərir. Bu baxımdan Emin Sabitoğlu mahnıları elmi tədqiqatlar üçün də geniş material verir.

Görkəmli bəstəkarın fərdi üslubu kino musiqisində də özünü əks etdirir. Bu musiqi nümunələri filmdəki hadisələrlə birbaşa vəhdət təşkil edir. Filmin məzmun və qayəsini dərk etməkdə, obrazların daxili dünyasını anlamaqda tamaşaçıya kömək göstərir. Bəzən film bitir, lakin tamaşaçı hələ də musiqinin təsirindən ayrıla bilmir.

Emin Sabitoğlu 40-dan çox filmə musiqi bəstələmişdir. Bunlardan "Baladadaşın ilk məhəbbəti", "Ad günü", "Gün keçdi", "Dədə Qorqud", "Dantenin yubileyi", "Təhminə", "Həm ziyarət, həm ticarət" və digər filmlərə baxmayan və buradakı musiqiləri yadda saxlamayan tamaşaçı çətin tapılar. Həmin filmlərdə musiqi ilə məzmun bir-birini o dərəcədə tamamlayır ki, orada səslənən mahnını yada salanda filmi xatırlayır, film barədə söhbət gedəndə həmin tanış melodiyaları sanki təzədən dinləyirsən.

Musiqi nəzəriyyəçiləri kinorejissor Həsən Seyidbəylinin çəkdiyi "Bizim Cəbiş müəllim" filminə Emin Sabitoğlunun yazdığı musiqini "ilahi musiqi" adlandırırlar. Bu musiqi İkinci Dünya müharibəsi illərində arxa cəbhədəki insanların daxili gərginliyini, mürəkkəb yaşantılarını əks etdirir. Bu insanlar döyüş meydanlarından, qan tökülən, ölümlər baş verən şəhər və kəndlərdən çox-çox uzaqlarda olsalar da, mənəvi əzab və sarsıntılarla yaşayır, həm cəbhədəki əzizləri üçün təlaş keçirir, həm də müharibənin gətirdiyi çətinliklərə dözür, işləyir, çalışırlar. Emin Sabitoğlu isə filmə yazdığı musiqi ilə bu insanların hiss və duyğularını, əzablarını, gələcəklə bağlı xoş ümidlərini dilə gətirir.

Emin Sabitoğlu özü Federiko Fellininin filmlərinə bəstəkar Nino Rotanın yazdığı melodiyaları ideal musiqi adlandırırdı: "Onun mövzu-tezisləri sadə olsa da, assosiativ təsir baxımından qabarıqdır. Onlar asanlıqla tanınır və hər dəfə gözlənilməz olur".

Bu sözləri sanki bir başqası Emin Sabitoğlunun özü haqqında deyib.

Emin Sabitoğlunun musiqisi hər bir filmin "tale"yində özünəməxsus rol oynayır. Birində müəyyən qüsurlardan diqqəti yayındırır, digərində yaddaşlara həkk olunaraq, ürəklərə hakim kəsilərək filmin ömrünü uzadır...

Bir məqamı qeyd edək ki, poeziyada Vaqif Səmədoğlu ilə olduğu kimi, kinoda da kinorejissor Rasim Ocaqovla Emin Sabitoğlunun uğurlu işi öz izini qoyub. Bu yaradıcılıq ittifaqı 1970-ci illərin sonlarından başlanır və çox gözəl bəhrələr verir. Emin Sabitoğlunun Rasim Ocaqovun çəkdiyi bir sıra filmlərə, o cümlədən "İstintaq", "Bağlı qapı", "Həm ziyarət, həm ticarət", "Ad günü", "Ölsəm, bağışla" filmlərinə yazdığı musiqi nümunələri illər keçsə də, unudulmur. Buradakı mahnı və sözsüz melodiyalar həm tamaşaçını filmə baxmağa cəlb edir, həm də onun çəkildiyi dövrün bir çox məziyyətlərini dərk etməkdə köməkçi olur.

## Musiqi ilə kədərləndirən və güldürən adam

"Nedelya" qəzetinin müxbiri S.Qladış 1984-cü ildə Kiyevdə keçirilmiş XVII Ümumittifaq kinofestivalı haqqındakı yazısında Emin Sabitoğlunun adını G.Kançeli, Y.Doqa, Y.Frenkel kimi sənətkarlarla yanaşı qeyd etmişdi.

Musiqişünas Zümrüd Dadaşzadə isə belə yazır: "Emin Sabitoğlunun Azərbaycan kinosundakı rolunu N.Rota, M.Leqran, F.Ley, A.Petrov kimi məşhur kino bəstəkarları ilə müqayisə edərdim. Ən yaxşı filmlərdə Emin müəllimin musiqisi təkrarsız atmosfer yaradır, mətnaltı psixoloji məzmun açıqlayır, qəhrəmanların məxfi hislərini üzə çıxarır".

Emin Sabitoğlu bir sıra filmlərin musiqi tərtibatçısı da olub. Bəzilərində isə hətta aktyor kimi çıxış edib, yaxud müəyyən replikalar söyləyib. Bakı, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə haqqında filmlərin musiqi tərtibatını verib. "Aktrisanın təbəssümü" (Nəsibə Zeynalova haqqında film), "Salam, Zeynəb" filmlərində çıxış edib və s.

Emin Sabitoğlu çox güclü yumor hissinə də malik insan idi. Bu ona satirik qələm sahibi olan atası Sabit Rəhmandan keçmişdi. Ona görə də bəstəkarın musiqili komediyalardakı yaradıcılıq işi uğurlu alınırdı.

Bu mükəmməllik Sabit Rəhmanın librettosu əsasında yazılmış "Hicran" komediyasında özünü daha aydın göstərir. Dram teatrında isə bəstəkar əsasən rejissor Tofiq Kazımovla əməkdaşlıq edirdi. Onun xalq yazıçısı İlyas Əfəndiyevin "Unuda bilmirəm" tamaşasındakı musiqisi də əbədiyaşarlıq qazanıb. Nərminin mahnısını xatırlayaq. Əslində bu mahnının musiqisi mübaliğəsiz valsdır, çox gözəl bir vals.

Bu faktın özü də göstərir ki, Emin Sabitoğlu geniş yaradıcılıq diapazonuna malik bəstəkar idi və istənilən janrda əsər yaza bilərdi. Onun yaradıcılıq yolunda nəzərəçarpan maraqlı məqam bir də o idi ki, mahnı janrına daha irihəcmli və ciddi janrlardan keçərək gəlmişdi.

Yazıb-yaratdığı musiqi əsərlərinin hər biri onun Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri idi. Görkəmli bəstəkar, respublikanın xalq artisti, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli, professor Emin Sabitoğlunun xidmətləri unudulmur. Bu il avqustun 5-də Prezident İlham Əliyev bəstəkarın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

Emin Sabitoğlu rəngarəng yaradıcılıq palitrasına malik sənətkar idi. Milli-mədəni ənənələr zəminində yüksələn və müasir musiqinin nailiyyətlərindən uğurla bəhrələnərək Azərbaycanın mədəniyyət salnaməsini zənginləşdirən şəxsiyyətlərdəndir. Bəstəkar sözlə nəğmənin ahəngdar vəhdətində mahnı janrının nadir incilərini meydana gətirmiş, çox sayda kinofilmlər və teatr tamaşaları üçün yazdığı yaddaqalan melodiyalarla unudulmaz bədii lövhələr yaratmışdır.

## Bakı vaxtı

Ömrünün son 6 ilini qardaş Türkiyədə yaşayıb-yaratdı. Bu, qətiyyən onun vətəndən üz döndərməsi, yaxud uzaq düşməsi deyildi. İstanbulda Eminin iş otağındakı saat Bakı vaxtı ilə işləyirdi. Onun ürəyi Azərbaycanla döyünürdü.

İstanbul Texniki Universitetinin Türk Musiqi Dövlət Konservatoriyasında dərs deyirdi. Böyük hörmət qazanmışdı. Belə də olmalı idi.

Qəribədir ki, dünyasını dəyişdiyi zaman yaşayış yeri Türkiyə olsa da, Bakıda vəfat etdi. Sanki onu torpaq çəkmiş, vətən səsləmişdi. O vətən ki, Emin Sabitoğlu bütün əsərlərində doğma yurdunun gözəlliklərini, şəhərlərini, kəndlərini, insanlarının zəngin mənəvi dünyasını vəsf etmişdi. O vətən ki, orada Emin Sabitoğlunun əsərləri peşəsindən və yaşından asılı olmayaraq hamı tərəfindən sevilir, yaddaşlarda yaşayır və unudulmur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2017.- 1 dekabr.- S.11.